**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№385/1** **05 fevral 2026-cı il**

**"Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"da dəyişiklik edilməsi barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"nda (2021-2030-cu illər) həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərə, Beynəlxalq Audit Standartlarına, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə Birlikdə), 1 saylı Beynəlxalq Keyfiyyətə Nəzarət Standartına, 1 Saylı "Maliyyə Hesabatlarının Auditini yə ya Təhlilini, yaxud Digər Təsdiqləmə yə ya Əlaqəli Xidmətlər üzrə Tapşırıqları Yerinə Yetirən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsi", 2 Saylı "Tapşırığın keyfiyyətinin təhlili" Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartlarına, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) 1 saylı "Keyfiyyətin təmin edilməsi" üzvlük öhdəliyinin tələblərinə müvafiq olaraq dəyişiklik edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Dəyişiklik edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar" təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (S.Vəlizadə) tapşırılsın ki, auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş "Qaydalar"a uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər.
3. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 dekabr tarixli 362/5 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar" qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın və "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**